# STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR

## STRATEJİ MƏQSƏD 1. KEYFİYYƏTLİ ALİ TƏHSİL TƏMİN EDƏN FİLİALA ÇEVRİLMƏK

### Strateji hədəf 1.1.

- Strateji fəaliyyət planına əsasən 2030-cü ilə qədər yüksək bal toplayan abituriyentlərin filiala cəlb edilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi;
- 2030-cu ilə qədər magistratura səviyyəsinə tələbə qəbulunun həyata keçirilməsi.
- UNEC Zaqatala filialının təhsil proqramlarının ölkədə (xüsüsilə regionlarda) tanıtım tədbirlərinin davamlı şəkildə genişləndirilməsi və effektivliyinin artırılması.

### Strateji hədəf 1.2.

- Filialda təhsil xidmətlərinin əmək bazarının tələbatlarına uyğunlaşdırılması, təhsilalanların yüksək yaradıcı potensiala, fundamental biliklərə və praktik bacarıqlara malik olan mütəxəssislər kimi yetişdirilməsi məqsədilə 2030-cu ilədək tədris prosesini təhsilalanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə daim təkmilləşdirmək. Filialın rəqabətə dözümlülüyünün təmin olunması məqsədi ilə zəruri şərt kimi təhsilin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi;
- İxtisasların siyahısının artırılması ilə bərabər, tədris standartları, planları və proqramlarının mütərəqqi təcrübəyə və əmək bazarının tələblərinə uyğunlaşdırılması;
- Tədris olunan fənlərin nəzəri hissəsinin azaldılaraq praktiki yönümlü hissələrə üstünlük verilməsi;
- İxtisas fənləri üzrə mütəxəssislərin filiala cəlb edilməsi və tələbələrə tədris olunan fənlər üzrə real iş bazarı haqqında seminarların təşkil edilməsi.
- Müəllimlərin aktiv dərs yükünün azaldılması;
- Müəllim-mentor, tələbə-mentor institutlarının bütün filial üzrə formalaşdırılması;
- Xarici dil tədrisinin dünya praktikasına uyğunlaşdırılması, UNEC-in təcrübəsindən yararlanılması;
- Tələbələrin ölkədaxili və beynəlxalq mübadilə proqramlarına cəlb edilməsi;
- Təhsil fəaliyyətində innovasiya və müasir informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi, tələbələrin İKT, müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının genişləndirilməsi;
- İnformasiya texnologiyaları ixtisası üzrə təhsil alan tələbələrin müasir standartlara cavab verəcək şəkildə təhsil almasını təmin etmək məqsədilə maddi-texniki bazanın təkmilləşdirilməsi;
- Tələbələrin təcrübələrinin təşkilinin təkmilləşdirilməsi.

### Strateji hədəf 1.3.

- Filialın daxili imkanları hesabına adlı təqaüdlərin və mükafatların təsis edilməsi;

- Tədris prosesində tələbələrin fəallığının artırılmasını təmin edən motivasiyalar sisteminin yaradılması;
- təhsil sahəsində əhəmiyyətli uğurlar əldə etmiş tələbələrin mükafatlandırılması mexanizminin işlənilməsi və həyata keçirilməsi.

**Strateji hədəf 1.4**

- 2030-cu ilə qədər distant təhsil xidmətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi.
- Distant təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi.

**Strateji hədəf 1.5.**

- Filial daxilində (binada, yataqxanada, ərazidə) tələbələrin asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün zəruri şəraitin yaradılması;
- Auditoriyaların və ümumilikdə binanın müasir standartlara cavab verən maddi-texniki bazayla təmin olunması;
- Yataqxananın və idman zalının əsaslı təmir olunması, ölkədə və regionda ən qabaqçıl yataqxana vəziyyətinə gətirilməsi;
- Yeməkxananın müasir standartlara uyğunluğunun artırılması və qida çeşitlərinin sayının artırılması.

- **Strateji hədəf 1.6.**
- 2030-cu ilə qədər professor-müəllim heyətinin peşəkarlıq səviyyəsini fasiləsiz olaraq artırmaq və 40 yaşadək professor-müəllim heyətinin payını davamlı yüksəltmək;
- Müxtəlif proqramlar çərçivəsində xaricdə təhsil almış və ölkə daxilində yetişmiş gənclər hesabına professor-müəllim heyətinin strukturunun gəncləşdirilməsi;
- Gənc professor-müəllim heyətinə dəstəyin verilməsi;
- Hər bir sahə üzrə müəllimlərin lazımı səviyyədə təşkil olunmuş məqsədli təlimlərə cəlb edilməsini təmin etmək;
- Filial daxili müəllimlərin və inzibati işçilərin əmək haqlarını regional əmək haqqı səviyyəsinə çatdırmaq.

## STRATEJİ MƏQSƏD 2. FİLİALDA ELMİ-TƏDQİQAT İŞLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Strateji hədəf 2.1.**

- Filiala elmi dərəcəli professor-müəllim heyətinin cəlb edilməsi;
- Professor-müəllim heyətinin ixtisasas və dərəcələrinin artırılması və staj keçməsinin təşkil.

**Strateji hədəf 2.2.**

- Elmi-tədqiqat işlərinin əlavə maliyyələşdirilməsi məqsədi ilə regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi;
- Filial əməkdaşlarının elmi-tədqiqatlarının nəticələrini əks etdirən hesabat sisteminin yaradılması;

- tələbələrin elmi yaradıcılığının dəstəklənməsi və inkişaf etdirilməsi, xüsusi qabiliyyəti olan tələbələrin müəyyən edilməsi və onların aşağı kurslardan elmi-tədqiqat işlərinə cəlb edilməsi;
- Elmi-tədqiqat işlərinin yerinə yetirilməsində filialın maddi-texniki bazasının potensial imkanlarından istifadənin gücləndirilməsi;
- İstedadlı tələbələrin, gənc tədqiqatçıların dəstəklənməsi məqsədi ilə mükafatların və qrantların təsis edilməsi;

- **Strateji hədəf 2.3**
- 2030-cu ilə qədər "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfüzlu nəşrlərdə məqalələr çap etmək;
- Aparılan tədqiqatların nüfuzlu nəşrlərdə dərci üçün onların xarici dillərə mükəmməl şəkildə çevrilməsinə dəstək mexanizminin yaradılması;
- Nüfuzlu nəşrlərdə əsər çap edilməsinin stimullaşdırılması mexanizminin daim təkmilləşdirilməsi

- **Strateji hədəf 2.4.**
- 2030-cu ilə qədər ən azı üç Respublika elmi-praktiki konfransını təşkil etmək;
- Elmi tədbirin təşkil edilməsi məqsədilə ölkədaxili tərəfdaş universitetlərlə razılığın əldə edilməsi;
- Elmi tədbirin keçirilməsinə maliyyə dəstəyi verəcək sponsorlarla razılığın əldə edilməsi;
- Elmi tədbirin ardıcıl olaraq hər il bir dəfə təşkil edilməsi.

**Strateji hədəf 2.5.**

- 2030-cu ilə qədər hər il bir dəfə filial tələbələrinin nüfuzlu respublika tələbə elmi konfransını təşkil etmək;
- Elmi tədbirin təsisi məqsədilə ölkədaxili universitetlərlə razılığın əldə edilməsi;
- Elmi tədbirin keçirilməsinə maliyyə dəstəyi verəcək yerli sponsorlarla razılığın əldə edilməsi;
- Elmi tədbirin ardıcıl olaraq hər il bir dəfə təşkil edilməsi.

## STRATEJİ MƏQSƏD 3. FİLİAL-ƏMƏK BAZARI ƏMƏKDAŞLIĞININ GENİŞLƏNDİRİLMƏSİ

- **Strateji hədəf 3.1.**
- 2030-cu ilə qədər filialda "start-up"ların sayının hər il artımına nail olmaq;
- Biznes-inkubasiya mərkəzinin yaradılması;
- Tələbələr və professor-müəllim heyəti arasında "start-up" təlimlərinin keçirilməsi;
- Tələbələrlə yanaşı, professor-müəllim heyətinin də "start up"larının qurulması.

**Strateji hədəf 3.2.**

- 2030-cu ilə qədər UNEC Zaqatala filialıda biznes dünyasının birgə reallaşdırdığı tədqiqat və innovasiya layihələrinin sayını hər il artırmaq;
- Regional biznes dünyası ilə birgə elmi tədqiqatların aparılması;
- Regional biznes dünyası ilə birgə tədqiqat mərkəzləri qurulması;
- Regional biznes dünyası ilə birgə kommersiya müəssisələrinin qurulması.

## STRATEJİ MƏQSƏD 4. SOSİAL XİDMƏTLƏRDƏ APARICI TƏHSİL OCAĞINA ÇEVRİLMƏK

**Strateji hədəf 4.1.**

- 2030-cu ilə qədər hər təqvim ili milli səviyyəli ən az bir sosial məsuliyyətlilik layihəsini reallaşdırmaq;
- Cəmiyyətin elmi yanaşmaya və elmi inkişafa verdiyi dəyəri artırmağa xidmət edən sosial layihələrin həyata keçirilməsi;
- Cəmiyyətdə ekoloji şüurun inkişafına xidmət edən sosial layihələrin həyata keçirilməsi;
- Cəmiyyətin aktual sosial propblemlərinin öyrənilməsinə həsr edilmiş tədqiqat layihələrinin həyata keçirilməsi.

**Strateji hədəf 4.2.**

- 2030-cu ilə qədər tələbələrin təşkilatlanma mexanizmini və sosial şəraitini daim təkmilləşdirmək;
- İxtisaslaşmış tələbə təşkilatlarının sayının artırılması;
- Tələbə-universitet-valideyn üçtərəfli əlaqə modelinin tətbiq edilməsi;
- Tələbələrin karyera quruculuğuna dəstək verilməsi;
- Tələbələr arasında multikultural dəyərlərin yayılmasına xidmət edən tədbirlərin təşkil edilməsi;
- Tələbələrə psixoloji dəstək xidmətinin verilməsi üçün psixoloq ştatının verilməsi;
- Tələbələrin sosial layihələrinin sayının və çeşidliliyinin artırılması və onların davamlılığının təmin edilməsi.

**Strateji hədəf 4.5.**

- 2030-cu ilə qədər məzunlarla əlaqə mexanizmini daim təkmilləşdirmək;
- Məzunlar Assosiasiyasının yaradılması;
- Məzun günlərinin keçirilməsi;
- Fəxri məzunlarla sistemli əlaqə mexanizminin qurulması;
- Kariyera mərkəzində məzunlarla əlaqə mexanizminin qurulması;
- Məzunların əlamətdar tədbirlərə dəvət edilməsi;
- Məzunların elektron məlumat bazasının formalaşdırılması.

## STRATEJİ MƏQSƏD 5. FİLİALIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN TƏKMİLLƏŞDİRLMƏSİ

**Strateji hədəf 5.1.**

- 2030-cu ilə qədər UNEC Zaqatala filialına qonşu ölkələrdən əcnəbi tələbələrin cəlb edilməsi;
- Hədəf ölkələrdə UNEC və filialının imicinin yüksəldilməsi istiqamətində tədbirlərin görülməsi;
- UNEC-lə birgə beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrin qurulması;
- Ali məktəblərə qəbul üzrə beynəlxalq statuslu imtahanların nəticələri əsasında tələbə qəbulu imkanlarının genişləndirilməsi.

**Strateji hədəf 5.2.**

- 2030-cu ilə qədər beynəlxalq mübadilə proqramlarına müəllim və inzibati işçilərin cəlb edilməsi;
- Beynəlxalq mübadilə tələbəsi statusunun müəyyən edilməsi və onlar üçün prosedurların sadələşdirilməsi;
- Akademik və inzibati heyət üçün xarici dil təhsili imkanının yaradılması;
- Beynəlxalq tərəfdaşlarla əlaqələrin effektivliyinin artırılması;

**Strateji hədəf 5.3.**

- 2030-cu ilə qədər UDİD VƏ MİNOR ikili diplom proqramlarının tətbiqi;
- İkili diplom proqramlarının tətbiqi üçün UNEC təcrübəsindən istfadə edilməsi;

**Strateji hədəf 5.4.**

- 2030-cu ilə qədər ingilis dilində təhsil proqramlarının sayını davamlı artırmaq;
- UNEC-də yaradılacaq Xarici Dil Mərkəzinin bir böməsinin filialda formalaşdırılması;
- Tələbələr üçün ingilis dilində hazırlıq proqramlarının təklif edilməsi.

## STRATEJİ MƏQSƏD 6. DAHA ÇEVİK VƏ YÜKSƏK SƏMƏRƏLİLİYƏ MALİK UNİVERSİTET İDARƏETMƏ SİSTEMİNƏ SAHİB OLMAQ

**Strateji hədəf 6.1.**

- 2030-cu ilə qədər filialda strateji idarəetməni tam şəkildə tətbiq etmək;
- Strateji Fəaliyyət Planının təsdiq edilməsi;
- Bütün inzibati və akademik strukturların Strateji Fəaliyyət Planına uyğun fəaliyyət planlarının təsdiq edilməsi;
- Strateji idarəetmənin monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi.

**Strateji hədəf 6.2.**

- 2030-cu ilə qədər insan resursları idarəetməsində səmərəliliyi davamlı yüksəltmək;
- Universitetin fəaliyyət istiqamətlərin uyğun akademik və inzibati heyətin formalaşdırılması və davamlılığının təmin edilməsi;
- Akademik və inzibati heyətin vəzifə təlimatlarının hazırlanması;
- Akademik və inzibati heyətin peşəkar hazırlığının təlim proqramları vasitəsilə inkişaf

etdirilməsi;

- Akademik və inzibati heyətin iş yükü və performans ölçmə sistemlərinin davamlı inkişaf etdirilməsi;
- Karyera yüksəlişində performans göstəricilərinin nəzərə alınması;
- Əməyin motivasiya sistemlərinin davamlı təkmilləşdirilməsi;
- Əmək haqqlarının artımının ən azı inflyasiya səviyyəsinə uyğunlaşdırılması;
- Akademik və inzibati heyətin məmnunluq səviyyəsinin davamlı nəzarət altında saxlanılması.

**Strateji hədəf 6.3.**

- 2030-cu ilə qədər maliyyənin idarəedilməsində səmərəliliyi davamlı yüksəltmək;
- Filialın maliyyə mənbələrinin diversifikasiya edilməsi və artırılması;
- Sərbəst maliyyə resurslarının səmərəli investisiyalara yönəldilməsi;
- Təhsil haqqlarının müəyyən edilməsində sərbəstliyin əldə edilməsi;
- Maliyyə resurslarının ayrılmasında bürokratiyanın minimuma endirilməsi;
- Maliyyə resurslarının idarəedilməsində fakültənin rolunun artırılması;

**Strateji hədəf 6.4.**

- 2030-cu ilə qədər informasiya resurslarının idarə edilməsində səmərəliliyi davamlı yüksəltmək;
- İdarəetmənin İnformasiya Sisteminin təkmilləşdirilməsi;
- Göstərilən elektron xidmətlərin təhlükəsizliyi və keyfiyyətinin yüksəldilməsi;
- Mobil tətbiqlərin dəqstəklənməsi;
- “Online” xidmətlərinin çoxaldılması və pulsuz Wi-fi sahələrinin yaradılması;
- UNEC-lə birlikdə “Scopus”, “Ebsco” kimi elmi bazalara çıxışın təmin edilməsi;
- Təqdim edilən elektron xidmətlərin öz aralarında və kənar sistemlərlə inteqrasiyasının təmin edilməsi.

**Strateji hədəf 6.5.**

- 2030-cu ilə qədər universitet idarəetmə strukturunu optimallaşdırmaq;
- İnzibati idarəetmə strukturlarının funksionallıq əsasında formalaşdırılması prosesinin tamamlanması;

## STRATEJİ MƏQSƏD 7. ÖLKƏDƏ YÜKSƏK REYTİNQLİ FİLİALA ÇEVRİLMƏK

**Strateji hədəf 7.1.**

- 10 yaşında ölkənin ən yaxşı universitelərdən birinə çevrilmək;
- QS və digər nüfuzlu reytinq təşkilatları tərəfindən təşkil edilən seminar, sərgi və digər tədbirlərdə fəal iştirak edilməsi;
- QS və digər nüfuzlu reytinq təşkilatları tərəfindən təşkil edilən beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyinin edilməsi;

## MALİYYƏLƏŞDİRMƏ

Strateji Fəaliyyət Planı UNEC Zaqatala filialının öz vəsaiti, maliyyə dəstəyi ilə həyata keçiriləcəkdir.

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

2023-cu ildən başlayaraq fasiləsiz olaraq Strateji İnkişaf Planında nəzərdə tutulan hədəflərə nə qədər nail olunduğunun monitorinq və qiymətləndirilməsi aparılacaq, yetərsiz məqamların ortadan qaldırılması istiqamətində müvafiq tədbirlər görüləcəkdir.

UNEC Zaqatala filialının akademik və inzibati strukturları Strateji İnkişaf Planına uyğun olaraq öz strateji inkişaf planlarını hazırlayacaqdır. Bu zaman filialın onlarla birbaşa bağlı olan strateji hədəflərini strateji məqsədlər, strateji fəaliyyətlərini isə strateji hədəflər kimi seçirlər. Onların fəaliyyətinin qiymətləndirilməsi də həmin strateji planları əsasında aparılacaqdır